# İstiqlal tariximizin 20 Yanvar səhifəsi

**Dünən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunan "İstiqlal tariximizin 20 yanvar səhifəsi" mövzusunda elmi sessiya keçirilib.**

Əvvəlcə Vətənimizin istiqlalı yolunda canlarını fəda edən bütün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə muzeyin direktoru akademik Rafael Hüseynov açaraq 1990-cı ilin 20 Yanvar hadisələrinin baş verdiyi tarixi dövr haqqında ətraflı məlumat verib. O, ölkəmizin rəsmi təqviminə Ümumxalq Hüzn Günü kimi daxil edilmiş 20 Yanvar gününün Azərbaycan xalqının tarixində sadəcə ağrı və acı ilə xatırlanacaq gün deyil, həm də şərəf günü olduğunu vurğulayıb. Qeyd edib ki, bu qanlı cinayət xalqımızın mübarizə əzmini qıra bilmədi. 20 Yanvar faciəsi həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi. Bu hadisə Azərbaycan milli kimliyinin formalaşmasına mühüm təsir etdi.



Rafael Hüseynov daha sonra vurğulayıb ki, 1990-cı ilin 20 Yanvar hadisələri əslində istiqlalımızın, Azərbaycanın müstəqilliyinin bərpasına aparan yolun başlanğıcıdır.

Direktor bildirib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Bu addımı atmaqda məqsəd Azərbaycanın haqq səsinin, Azərbaycan gerçəklərinin dünyaya çatdırılmasının qarşısını almaq idi: "Məhz bu faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrilib dönməz xarakter aldı. Sovet rəhbərliyi xalqımızı qorxu ilə susdurmağa çalışsa da, səhəri gün şəhidlərimizin dəfninə milyonlarla insan qoşuldu. Azərbaycan xalqı yanvarın 22-də paytaxtın Azadlıq meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirdi".

Akademik Rafael Hüseynov faciəyə ilk siyasi qiymətin görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən verildiyini nəzərə çatdırıb. Bildirib ki, dünya şöhrətli siyasətçi Heydər Əliyev məqsədli şəkildə SSRİ-dəki bütün vəzifələrindən uzaqlaşdırılmasına və ciddi nəzarətdə saxlanılmasına rəğmən hadisədən bir gün sonra öz həyatını təhlükə altına qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək faciənin beynəlxalq hüquqa, humanizm prinsiplərinə zidd, siyasi rəhbərlərin xəyanəti üzündən yol verilmiş kobud siyasi səhv olduğunu açıq şəkildə bəyan edib.

Muzeyin direktoru vurğulayıb ki, artıq 4 ildən artıqdır 20 Yanvar ölkəmizdə bədbin ovqatda qeyd olunmur, çünki Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan qurtarılması, Azərbaycanın adının tarixə qalib dövlət kimi yazılmasından sonra bütün şəhidlərimizin ruhları şaddır.

Çıxışının sonunda akademik Rafael Hüseynov Qanlı Yanvar hadisələrindən 35 il keçməsinə baxmayaraq, xalqımızın faciə şəhidlərinin xatirəsini hər zaman əziz tutduğunu bildirib. Qeyd edib ki, şəhidlərimizin fədakarlığı sayəsində bu gün biz müstəqil və güclü bir dövlətə sahibik. Nə qədər zaman keçsə də, bu faciə heç zaman Azərbaycan xalqı tərəfindən unudulmayacaq.

Sonra muzeyin komparativistika və bədii tərcümə şöbəsinin müdiri professor Şəfəq Əlibəyli 20 Yanvar faciəsi günlərində keçirdiyi hiss və duyğularını bölüşüb.

Tədbirdə, həmçinin muzeyin Yeni və müasir Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi şöbəsinin böyük elmi işçisi filologiya üzrə fəlsəfə doktoru Göyərçin Mustafayeva 20 Yanvar faciəsini yaddaşlarda yaşadan poeziya nümunələrindən bəhs edib.

***Qabil YUSİFOĞLU***
***XQ***

Xalq qəzeti .- 2025.- 18 yanvar (№ 11). - S.6.